https://doi.org/10.59849/3006-1342.2025.2.108
UOT 94

*Zəminə İsmayıl qızı Rəsulova*
*Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi*
*Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu*
*Elmi işçi*
*E-mail: zaminarasulova834@gmail.com*
*ORCID ID: 0009-0008-6548-3580*

# ŞƏKİNİN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ RƏŞİD BƏY ƏFƏNDİYEVİN ROLU

*Azərbaycanın özünəməxsus məişət ənənələri, sənətkarlığı və memarlığı ilə zəngin Şəki bölgəsi qədim tarixə, zəngin etnoqrafik bazaya və özünəməxsus adət-ənənələrə malikdir. Bu bölgəni tarixi və etnoqrafik cəhətdən ilk tədqiq edən isə tanınmış maarif xadimi, yazıçı, etnoqraf, pedaqoq Rəşid bəy Əfəndiyev olmuşdur, demək mümkündür. Rəşid bəy Əfəndiyev öz tədqiqatlarının nəticəsi əsasında müxtəlif yazı və məqalələr qələmə almış, onları dövri mətbuatda nəşr etdirmişdir. Onun Şəki tarixi üçün ən böyük töhfəsi şəhərdə ölkəşünaslıq muzeyinin təşkilinə göstərdiyi dəstək və bölgənin tarixi abidələri haqqında yazdığı kiçik həcmli kitab olmuşdur.*

*Bu məqalədə Rəşid bəy Əfəndiyev yaradıcılığına fərqli bucaqdan baxılacaq, onun Azərbaycan tarixinə verdiyi töhfələrdən bəhs olunacaq.*

*Açar sözlər:* Şəki, Rəşid bəy Əfəndiyev, tarix, diyarşünaslıq, muzey

*Giriş*

Rəşid bəy İsmayıl oğlu Əfəndizadə 1863-cü ildə Şəki şəhərində ruhani ailəsində anadan olmuşdur. İbtidai təhsilini Cümə məscidində yerləşən mollaxanada alan Rəşid, təhsilini rus dilində əvvəl qəza məktəbində, sonra şəhər məktəbində davam etdirmiş, daha sonra Qori seminariyasında oxumuşdur. 1882-ci ildə isə seminariyanı bitirib, Qəbələ kənd ibtidai məktəbinə təyinat almışdır [5, s. 5]. Səkkiz il çalışdığı bu məktəbdə Rəşid bəy ilk etnoqrafik tədqiqatlara başlamış, bölgənin tarixi memarlıq abidələrini, adət-ənənələrini və məişət mərasimlərini araşdırmışdır. Araşdırmalar dövri mətbuatda məqalələr şəklində dərc olunaraq Azərbaycan etnoqrafiyası və Nuxa qəzasının tarixinin tədqiqatçıları üçün önəmli istinada çevrilmişdir.

R.Əfəndiyev on il kənd məktəbində çalışdıqdan sonra 1892-ci ildə Tiflisə köçür, uzun müddət Qori Müəllimlər seminariyasının Azərbaycan şöbəsində ana dili və şəriət fənlərindən dərs deyir [5, s. 5]. 1924-cü ildə Azərbaycanın Birinci Ölkəşünaslıq Qurultayının nümayəndəsi, müxtəlif illərdə Etnoqrafiya Cəmiyyətinin Şəki şöbəsinin elmi katibi, SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının elmi işçisi olmuş Rəşid bəy Əfəndiyev Qəbələ kənd məktəbində başladığı etnoqrafik tədqiqatları demək olar ki, bütün ömrü boyu davam etdirmişdir. Görkəmli etnoqrafın fərqli illərdə "Nuxada evlənmək adətləri", "Qəbələ mahalı", "Qutqaşen kəndi haqqında bir neçə məlumat" və s. kimi etnoqrafik yazıları işıq üzü görmüşdür. Ümumiyyətlə, Rəşid bəy Əfəndiyev daha çox pedoqoq və etnoqraf kimi öyrənilib tanınsa da onun tarixi abidələrlə bağlı tədqiqatları müəyyən qədər diqqətdən kənarda qalmışdır. Halbuki o Şəki bölgəsinin tarixi memarlıq abidələri haqqında aparılan ilk tədqiqatların müəllifi və istiqamətləndiricisi olmuşdur.

*Əsas hissə*

Rəşid bəy Əfəndiyevi pedoqoji fəaliyyətlə yanaşı etnoqrafik və tarixi araşdırmalara təşviq edən səbəblər sırasında öz şəxsi maraq və vətən sevgisi ilə bərabər Çar Rusiyasının Qafqazın öyrənilməsi ilə bağlı maraqları da xüsusi yer tutur. Belə ki, Çar Rusiyasının 14 mart 1880-cı il tarixli 1345 saylı sərəncamı əsasında Qafqazda dərs deyən müəllimlərə bildirilirdi ki, hər bir müəllim dərs dediyi diyarı mümkün qədər öyrənməli və yazmalıdır [7, s. 11]. Məhz bu sərəncamın nəticəsi olaraq Azərbaycanın ayrı-ayrı bölgələrində məktəb müəllimləri bölgənin diyarşünaslığı, o cümlədən etnoqrafiyası ilə bağlı ciddi araşdırmalar aparmış, əldə etdikləri məlumatları "Qafqazın mahal və tayfalarının təsviri üçün materiallar toplusu" nda dərc etdirmişlər. Həmin topluda Rəşid bəyin də müəllifi olduğu bir-neçə məqalə yer almaqdadır. Ümumiyyətlə Nəriman Nərimanov, Sultan Məcid Qənizadə, Həbib bəy Mahmudbəyov, Firidun bəy Köçərli, Teymur bəy Bayraməlibəyov və digərləri kimi Rəşid bəy Əfəndiyev də Qafqaz, həmçinin Rusiya mətbuatındakı çıxışları ilə Azərbaycanda tarixşünaslıq fikrinin inkişafına tərəqqipərvər təsir göstərmişdir [10, s. 59].

Hələ 1919-cu ildə Bakıda, bir qədər sonra isə Gəncədə "Şərq arxeologiyası və tarixi həvəskarları dərnəyi" ni yaradanlar sırasında Cavad bəy Rəfibəyov və Yevgeni Paxomovla yanaşı Rəşid bəy Əfəndiyev də vardı. Sonralar bu dərnək Bakı Universiteti nəzdində "Müsəlman Şərqinin öyrənilməsi cəmiyyəti" adı altında fəaliyyətini davam etdirdi və tarixin daha dərindən öyrənilməsi məqsədilə 1919-cu ilin dekabrında Azərbaycan parlamentinin binasında ilk milli tarix muzeyi – "İstiqlal" yaradıldı [10, s. 64]. "İstiqlal" muzeyinin ömrü qısa olsa da sonralar eyni aydınların təşəbbüsü və əməyi sayəsində Bakı, Gəncə, Lənkəran, Naxçıvan və Şəkidə Azərbaycanın "qardələn" muzeyləri yaradıldı.

Rəşid bəy Əfəndiyevin bölgənin öyrənilməsi ilə bağlı fəaliyyətinin ən məhsuldar dövrü Sovet hakimiyyətinin qurulmasından sonrakı illərə təsadüf edir. Belə ki, 1923-cü ildə "Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyət" yaradılır və bu əyalətlərin də tədqiqinə böyük töhfə verir. Qısa bir zamanda cəmiyyətin əyalət bölmələri və rəyasət heyəti təşkil olunur.

"Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyət"in Nuxa əyaləti bölməsinin rəyasət heyətinin tərkibi aşağıdakı şəxslərdən təşkil olunmuşdur: 1) M.A.Xələfzadə; 2) R.Əfəndiyev – Əyalət xalq təhsil bölməsi; 3) M.Xasayev – torpaq-əkinçilik; 4) Rüstəmbəyli – Əyalət komitəsi; 5) Tursev – meşəbəyi; 6) K.K.Ağayev – Statistika bürosu; 7) Orlov – həkim-veterinar; 8) Kutkaşenlı; 9) Haşim Əfəndi [3, s. 14]. Cəmiyyətin Nuxa bölməsinə rəhbərliyi məhz Rəşid bəy Əfəndiyev edirdi.

Rəşid bəy həmin dövrdə bölgədə şəxsən tədqiqatlar aparmaqla yanaşı Bakıdan gələn ekspedisyalara da istiqamət verirdi. 1925 ci ilin avqust ayında Azərbaycan Dövlət Muzeyinin əməkdaşlarının Nuxa qəzasına səfərində Rəşid bəy bölgənin tədqiqi üçün ekspedisiyaya bələdçilik etmiş, məsləhətlər vermişdir. Həmin ekspedisiyaya dair hesabatda Davud Şərifov Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyətin Nuxadakı nümayəndəsi olan Rəşid bəy Əfəndiyevə köməyi üçün xüsusi olaraq öz minnətdarlığını bildirmişdir [2].

Ekspedisiya üzvləri D.Şərifov başda olmaqla Nuxa qəzası sakini Rəşid Əfəndiyevdən, rəssam K.A.Klementyevadan və Azərbaycan Dövlət Muzeyinin əməkdaşı İshaq Cəfərzadədən ibarət idi. Sonradan ekspedisiyaya Nuxa muzeyinin əməkdaşı Şıxməmmədbəyov da qoşulur [4, s. 33]. Həmin ekspedisiyanın nəticəsi olaraq dərc olunan məqalə və hesabatlar Şəkinin tarixini tədqiq edən araşdırmaçılar üçün vacib mənbəyə çevrilir. Ancaq nəzərə almaq lazımdır ki, Nuxa qəzasına təşkil olunmuş ekspedisiya və onun nəticələri Davud Şərifovun adı ilə bağlı olsa da bu tədqiqata yön verən məhz Rəşid bəy Əfəndiyev olmuşdur. D.Şərifov Nuxa qəzasında ilk araşdırmalarını Şəki xanlarının evindən başlamışdır. XVIII əsrdə inşa olunmuş bu ev şəbəkə pəncərələri, daxili dekorasiyası ilə xüsusi marağa səbəb olmuş və Şəkixanovların evi haqqında ilk elmi məlumatlar məhz D.Şərifov tərəfindən yazıya

alınmışdır. Ekspedisiya üzvləri həmçinin Şəki Xan sarayında olmuş, onun divar rəsmlərinin eskizlərini çıxarmışlar.

Ekspedisiyanın tədqiq etdiyi ən maraqlı tarixi abidə 1692-ci ildə inşa olunmuş məscid hesab oluna bilər. Ekspedisiyanın hesabatında göstərilir ki, vəhşi meyvə ağaclarının bitdiyi və "Almalı" adı ilə tanınan yarğanın üstündə, qayanın yarğana tərəf çıxıntısında yerləşən qədim məscidin tikinti tarixi qapısının üzərindəki kitabədə əks olunub və ön tərəfi rəngarəng şəbəkə pəncərələrdən yığılıb. Bu məlumat Şəkinin islam dini memarlıq adidələrinin tədqiqatçıları üçün böyük əhəmiyyətə malikdir. Ancaq təəssüf ki, bu gün həmin məkan və məscid haqqında qeyd olunan mənbədən başqa heç bir məlumat mövcud deyil.

Ekspedisiyanın hesabatında göstərilir ki, daha sonra R.Əfəndiyevin təklifi ilə D.Şərifov Şəki şəhərinin su kəmərlərinə diqqət yetirmişdi. Mənbədə su kəmərləri haqqında geniş izahat yoxdur, bununla belə güman etmək olar ki, onlar Şəkinin qədim "Hacı Həsən" və "Taclıq" su kəmərləri ilə tanış olublar. Bir sözlə, nəticəsi Şəkinin tarixi memarlıq abidələrinin öyrənilməsi nöqteyi nəzərindən mühüm mənbəyə çevrilən bu ekspedisiyanın əsas bələdçisi məhz Rəşid bəy Əfəndiyev olmuşdur. O, ekspedisiya üzvlərini doğulub boya-başa çatdığı doğma şəhərin bütün tarixi əhəmiyyətə malik məkanları ilə tanış etmişdir.

1923-cü ildə "Azərbaycanı Tədqiq edən və Öyrənən Cəmiyyət"in tarix-etnoqrafiya bölməsi üzvlərinin təşəbbüsü ilə yaradılan Arxeologiya Komitəsi 1927-ci ildən "Azərbaycan asari-ətiqələri, incəsənət və təbiət abidələrinin mühafizəsi komitəsi" (Azkomstaris) adlandırılır [1, s. 12]. 1928-ci ildə komitənin üzvü olan Rəşid bəy Əfəndiyevin yaşadığı diyara həsr etdiyi "Nuxa qəzasında olan asarü-ətiqələr" adlı kitabı dərc olunur. Həmin dövrdə Rəşid bəy Əfəndiyev artıq ictimai əsaslarla bölgənin ilk ölkəşünaslıq muzeyinin direktoru idi [8, s. 55].

Ümumiyyətlə Rəşid bəy sadəcə bir pedoqoq deyil, eyni zamanda Azərbaycanın tarixini öyrənməyə, tanıtmağa və gələcək nəsillərə çatdırmağa çalışan könüllü tarixçi, arxeoloq, etnoqraf olmuşdur. Bütün ömrünü təhsilə, cəmiyyətin maariflənməsinə həsr etmiş Rəşid bəy Əfəndiyevin bölgənin diyarşünaslığının ilk tədqiqatçısı olmuşdur. O, Şəki, Oğuz və Qəbələdə apardığı tədqiqatlarının nəticəsini ilk dəfə 1927-ci ildə "Памятники древности в Нухинском уезде" adı ilə məqalə şəklində rus dilində dərc etdirib [9, s. 65]. Bir il sonra isə məqalə ayrıca olaraq "Nuxa qəzasında olan asarü-ətiqələr" adı ilə ilk dəfə, dövrün tələbinə uyğun olaraq əski əlifba ilə ayrıca kitab şəklində nəşr olunmuşdur. 2017-ci ildə isə həmin kitab latın əlifbası ilə yenidən dərc edilmişdir. "Asarü-ətiqələr" sözünün mənası "köhnədən qalmış maddi mədəniyyət abidələri, tarixi abidələr" deməkdir və bu kitabda bölgənin maddi mədəniyyət abidələrindən bəhs olunur.

Tarixi abidələrin baxımsızlığı və gələcəyi üçün narahat olan R.Əfəndiyev kitabı aşağıdakı cümlə ilə başlayır: "Nuxa şəhərində və yaxud qəzaların bəzi yerlərində zamanımıza qədər mühafizə edilən əski qalalar, binalar, türbələr və böyük qəbristanlıqlar və sair asari qədimənin ənqazları get-gedə pozulub xarab olursa da, lakin bu anacan heç bir arxeoloq tərəfindən nəinki hərfiyyət yapılmışdır, hətta ətraflı surətdə tarixi təhqiq və tətəbbötə uğramamışdır" [ 6, s. 5]. Ardınca isə Rəşid bəy Əfəndiyev bölgənin tarix və etnoqrafiyasının öyrənilməsi sahəsində atdığı ilk addımlardan bəhs edərək topladığı məlumatların "Qafqazın mahal və tayfalarının təsviri üçün materiallar toplusu" nda dərc olunduğunu bildirir. Rəşid bəyin yazmış olduğu kiçik həcmli kitabda rəvayət və tarixi faktlara istinadən Qala divarları və Xan sarayı haqqında maraqlı məlumatlar yer almışdır ki, bu da ərazidə olan tarixi abidələrin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Rəşid bəy Şəkidə Quruçay ərazisində mövcud olmuş qədim qaladan, xanın məscidinin yerində kilsə tikilməsindən bəhs edir ki, bu məlumatlara başqa mənbələrdə təsadüf olunmur.

Digər bir maraqlı fakt isə "Kitabi Dədə Qorqud" boylarında bəhs olunan tərzdə, tonqal qalamaq vasitəsilə məlumat ötürülməsi faktıdır. Rəşid bəy yazır ki, şəhərin ətrafındakı

dağlarda qaravul məntəqələri vardı və onlar bir təhlükə hiss etdikdə gecələr alov, gündüzlər tüstü vasitəsilə qalaya xəbər ötürürlər. Bu məlumat kiçik olsa da sübut edir ki, "Kitabi-Dədə Qorqud"da haqqında bəhs olunan bəzi hadisələr məhz Şəki bölgəsində cərəyan edib və Şəki ən qədim zamanlardan türklərin məskunlaşdığı torpaqlardan biri olub.

Rəşid bəy öz yazısında tarixi memarlıq abidələrini təsvir etməklə kifayətlənmir, həm də onların gələcəyi üçün narahat olur, mühafizəsi üçün tövsiyyələr verir. Şəkinin Kiş kəndində yerləşən Alban məbədi haqqında yazır: "Orada, (yəni Kişdə) həvarilər zamanından qalma bir xristian kilsəsi mövcuddur. Kilsənin divarları daş və əhəngdir. Kilsə kiçik üç qulaq üstü tağlı bir tikilidən ibarətdir. İş bu müsəlləs şəklində olan bəsit bir tikilinin qaidəsində qapısı var. Üstündə ufacıq bir yarıq halında pəncərəsi vardır. O ətrafda xristian milləti yox, erməni dəxi yoxdur. Lakin şəhərdə sükunət edən Zuğ erməniləri ona manastırımızdır deyə mənimsəmişlər və divarının yüzünə suvağ vurub üstünə dəmir çəkmişlər. Bu minvalla zahirisini asari ətiqəlik halından çıxarmışlar. Bunun ətrafı həfriyyat edilmiş olsa gözəl nəticələr verməgi şübhəsizdir" [6, s. 8].

Sonuncu cümlələrdən Rəşid bəy Əfəndiyevin tarixi memarlıq abidələrinə böyük həssaslıqla yanaşdığı aşkar şəkildə hiss olunur. Rəşid bəy Kiş məbədinin divarına suvaq vurulub, dəmir çəkilməsini doğru hesab etmir. Belə halların tarixi abidələrə zərər vurduğunu qeyd edir. Bu isə Rəşid bəyin tarixi memarlıq abidələrinin qorunması yolunda öncü-lider olduğunun sübutudur.

Şəkidə ilk muzeyin yaradılması da məhz Rəşid bəy Əfəndiyevin adı ilə bağlıdır [8, s. 55]. Rəşid bəy Əfəndiyevin Şəki tarix-diyarşünaslıq muzeyinin yaradılmasında və fondunun zənginləşməsində müstəsna əməyi olmuşdur. R.Əfəndiyev hətta öz doğma evini də bu muzeyə vermiş, təqribən 30 ilə yaxın ölkəşünaslıq və ya tarix muzeyi onun evində fəaliyyət göstərmişdir. Rəşid bəy eyni zamanda uzun müddət ictimai əsaslarla muzeyin direktoru olmuşdur.

1925-ci ildə Şəki Xan sarayında, "Ölkəşünaslıq muzeyi" adı ilə fəaliyyətə başlayan Şəki Tarix Diyarşünaslıq muzeyi bu gün bölgənin tarixi abidələrinin və etnoqrafiyasının öyrənilməsində böyük əməyi olmuş, dövrünün qabaqcıl maarif xadimi, yazıçı və dramaturq Rəşid bəy Əfəndiyevin adını daşıyır. Rəşid bəy Əfəndiyevin böyük əməyi, diqqəti və tədqiqatları ilə zənginləşən Şəki Ölkəşünaslıq muzeyinə sonralar şəhərdə fəaliyyət göstərən ovçuluq və kənd təsərrüfatı muzeyləri də birləşdirilmişdir. Hazırda Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən beş ən yaşlı muzeydən biri olan Şəki Tarix Diyarşünaslıq muzeyi yüz yaşını qeyd etməyə hazırlaşır.

Şəkidə muzey işinin əsası 1925-ci ildə Rəşid bəy Əfəndiyevin rəhbərliyi ilə Şəki xan sarayında qoyulub, bu gün isə bu şəhərdə ona yaxın muzey fəaliyyət göstərir. Bu muzeylərdən biri isə böyük maarifçi, pedoqoq və etnoqraf Rəşid bəy Əfəndiyevin ev muzeyidir. Bu evin taleyinə hələ Rəşid bəy Əfəndiyevin öz sağlığında muzey olmaq yazılmışdır. Belə ki, Şəki Xan sarayında bərpaya yaranan ehtiyac səbəbilə 1930-cu illərdə ölkəşünaslıq muzeyi Rəşid bəyin evində yerləşdirilir. Uzun müddət XIX əsrdə inşa olunmuş ənənəvi, ikimərtəbəli Şəki evi arxiv materiallarında da əks olunduğu kimi muzey olaraq fəaliyyət göstərir. Bu fakt isə bir daha təsdiq edir ki, Rəşid bəy Əfəndiyev Şəkinin tarix və etnoqrafiyasının öyrənilməsində, toplanılmasında və qorunaraq günümüzə çatdırılmasında əvəzsiz xidmətlər göstərmişdir.

Azərbaycan xalqı onun əməyini və fəaliyyətini yüksək qiymətləndirmiş, 1992-ci ildə böyük maarifçi və etnoqraf Rəşid bəy Əfəndiyevin evi muzeyə çevrilmişdir. İki mindən çox eksponata sahib olan muzeydə R.Əfəndiyevin şəxsi əşyaları, kitabları və əlyazmaları ilə bərabər yaşadığı dövrə aid müxtəlif məişət əşyaları da böyük məhəbbətlə qorunur.

*Nəticə*

Araşdırma nəticəsində məlum olur ki, Rəşid bəy Əfəndiyev təkcə pedaqoq, maarifçi və yazıçı kimi deyil, həm də Azərbaycanın ilk könüllü tədqiqatçısı kimi milli elmi irsimizdə mühüm yer tutur. Onun Şəki və ətraf bölgələrin tarix və etnoqrafiyasının öyrənilməsi sahəsindəki fəaliyyəti, xüsusilə maddi mədəniyyət abidələrinin tədqiqi və qorunması istiqamətindəki təşəbbüsləri, bu sahədə gələcək tədqiqatlara ciddi zəmin yaratmışdır. Rəşid bəyin təşəbbüsü və iştirakı ilə təşkil olunan ekspedisiyalar, yazdığı elmi məqalələr və "Nuxa qəzasında olan asarü-ətiqələr" kitabı onun sistemli və məqsədyönlü fəaliyyətinin bariz nümunəsidir. O, bölgənin tarixini təkcə yazmaqla kifayətlənməmiş, həm də bu tarixin qorunması və gələcək nəsillərə çatdırılması üçün ardıcıl fəaliyyət göstərmişdir. Rəşid bəy Əfəndiyevin irsi bu gün də Azərbaycan tarixşünaslığı və etnoqrafiyası üçün aktual və etibarlı mənbə olaraq qalır.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı. "Elm". 2007, s. 12.
2. Davud Şərifov. "Некоторые памятники искусства и древности Нухинского уезда" Milli Azərbaycan Tarixi Muzeyi, Sənədli mənbələr fondu.
3. Hacıyeva Zemfira Əli qızı, Əliyarlı N.A.Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət (Tətəbbö) Bakı, "Elm", 2021, s. 14.
4. Nərgiz Əliyeva, Nasir Quluzadə, Emin Məmmədov."Davud bəy Şərifov". Bakı: Elm və Təhsil, 2017, s. 33.
5. Rəşid bəy Əfəndiyev, Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, s. 5.
6. Rəşid Əfəndiyev. "Nuxa qəzasında olan asarü-ətiqələr haqqında". Bakı, 2017.
7. Talıb Paşayev. "Diyarşünaslıq materialları gənc nəslin vətənpərvərlik tərbiyəsinin mühüm vasitəsi kimi" Bakı 2010, s. 11.
8. Z.Rəsulova, "Şəki Tarix Diyarşünaslıq Muzeyinin Tarixi", "Qədim Diyar" Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 1.465. 2024 / Cild VI, Sayı: 3, s. 55.
9. Азербайджанского комитета охраны памятников старины, искусства и природы: Азкомстарсис (б. Археологического комитета). Баку, Вып. 3. 1927, с. 65.
10. Севиндж Сеидова, Арзу Халилзаде.Историография Азербайджана. Баку, "ADMİU", 2024, с. 59.

УДК 94

*Замина Исмайыл кызы Расулова*
*Государственное Агентство По Туризму Азербайджанской Республики*
*Государственный Историко-Архитектурный Заповедник «Юхары Баш» в Шеки*

## РОЛЬ РАШИДА БЕКА ЭФЕНДИЕВА В ИЗУЧЕНИИ ИСТОРИИ ШЕКИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Шеки, Рашид бек Эфендиев, история, краеведение, музей

Регион Шеки, богатый самобытными бытовыми традициями, ремеслами и архитектурой, обладает древней историей, богатой этнографической базой и уникальными обычаями и традициями. Можно сказать, что первым, кто исследовал этот регион с историко-этнографической точки зрения, был известный просветитель, писатель, этнограф и педагог Рашид бек Эфендиев. На основе результатов своих

исследований Рашид бек Эфендиев написал различные статьи и очерки, которые публиковались в периодической печати. Его самым большим вкладом в историю Шеки стала поддержка в создании краеведческого музея в городе и его небольшая книга, посвящённая историческим памятникам региона.

В данной статье творчество Рашида бека Эфендиева будет рассмотрено с иной точки зрения, а также будет рассказано о его вкладе в историю Азербайджана.

UDC 94

*Zamina Ismail Rasulova*
*Azerbaijan Republic State Tourism Agency*
*Sheki "Yukhari Bash" National Historical-Architectural Reserve*

THE ROLE OF RASHID BEY AFANDIYEV IN THE STUDY OF SHEKI'S HISTORY

*SUMMARY*

*Key words:* Sheki, Rashid bey Afandiyev, history, local studies, museum

The Sheki region, rich in distinctive household traditions, craftsmanship, and architecture boasts an ancient history, a rich ethnographic foundation and unique customs, traditions. It can be said that the first person to study this region from a historical and ethnographic perspective was the renowned educator, writer, ethnographer and pedagogue Rashid bey Afandiyev. Based on the results of his research, Rashid bey Afandiyev wrote various articles and essays, which he published in the periodical press. His greatest contribution to the history of Sheki was his support for the establishment of a local history museum in the city and his small-volume book about the region's historical monuments.

This article offers a different perspective on Rashid bey Afandiyev's work and discusses his contributions to Azerbaijani history.

***Daxil oldu: 18.06.2025-ci il***